

Əhməd Qəşəmoğlu

## UTANDIM SƏNDƏN, ATA

Ata! indi mən
sənin ahıllıq yaşındayam,
ahıllıq yaşın düşür yadıma...

gənc idim,
səninsə saçların bəmbəyaz,
baxışlarında
görünən, gizlənən ayaz,
müdrik öyüdlərində bir nigaranlıq,
xəyallarında hələ də
arzularından boy verən
ürkək cavanlıq...

bir qoca, pirani bilirdim səni...
düşünürdüm arzuların
canındakı ağrılarla yüklənib,
düşünürdüm yer üzünə
sevgilərin tükənib,
düşünürdüm, düşüncənə
ögey ləngərlik gəlib,
düşünürdüm
heydən düşmüsən daha...

Ata! indi mən
sənin ahıllıq yaşındayam...

qəlbimi dindirdikcə
aşıb-daşan
şirin, sirli arzular,
yer üzünə daha doğma,
daha aydın qayğılar,
daha dərindən duyduqca
indiyədək duya bilmədiklərimi...
damarlarımda kükrədikcə qan,
tez-tez üzümə güldükcə ilham...

utanıram o vədə səni
bu dünyayla işi bitmiş
bir qoca bildiyimə...

## YOLUMUZ

Bir aləmdən gəlmişik biz,
Yolumuz o aləmədi.
Çəpərlər, daş-kəsək çoxdu,
Haqq bizə uğur dilədi.

Min dəfə də üzə gülsə,
Uymarıq heç vədə nəfsə.
Bu yolda lap ölüm gəlsə,
Qəlbimiz Allah ilədi.

Qorxma, dünya bu gündədi,
Ənvari-nurum öndədi.
Əhməd nə xoşbəxt bəndədi,
O, bu yolda əhd elədi.

## YAĞIŞIN GÖZƏLİ

Allah! üz-gözümə indi
yağır yağışın gözəli,
sanki, şəfəqdən süzülür -
bir az qəmzəli, məzəli.

mən heç bilmirdim ki, göylər,
mən heç bilmirdim ki, yağış
belə sərin, belə sirli
belə doğma danışarmış.

qəlbimdəki bir aləmin,
bir aləmi... heç ömrümdə
görmədiyim bir gündədi -
dil açıbdı pərdə-pərdə.

yağışla danışır qəlbim,
danışır hər işvəsiylə
qəlbim bir nəğmə oxuyur
yağışın sirli səsiylə.

## BU DAŞI BU GÖLƏ NİYƏ ATDILAR?

Bu gölə bu daşı kim atdı belə?
Daş suya dəyəndə o nə səs idi?
Qəlbimdə telləri niyə dindirdi?
Suyun işvəsiydi, ya naləsiydi?

Daş düşcək, çiçək tək qalxdı damlalar,
Sular diskindilər, yol ayırdılar.
Daş gözdən yox oldu, sirli ləpələr
Dairə-dairə nə deyirdilər?

Havada uçurdu o sirr dolu səs,
Daş da yol gedirdi gölün dibinə,
Quşlar olanları nəql edirdilər,
Sahilin otuna, çiçək, çöpünə.

Kövrəlib huşunu itirmişdi daş,
Nələr baş verirdi? bilmirdi hələ.
Eşikdə qala tək görkəmi vardı,
İndi qərq olurdu bir dərin lilə.

Hər yanda sakitlik olan bir vədə
Kimdi, nə səbəbə axı daş atdı?
Görünən, görünməz neçə aləmdə
Sirli aləmləri niyə oyatdı?

## ÜMİDİM GETDİYİM YOL

Halım pis, dindirmə məni,
Göylərdən endirmə məni,
Gözüm tutulur yaşdan,
Toylara göndərmə məni.

Yaşamağa həvəs yoxdu,
Bəxtim axı necə bəxtdi?
Bu bəlaya niyə düşdüm,
Günahım bu qədər çoxdu?

Çox qırıldım, yoxam daha,
Gümanım yoxdu sabaha.
Ümidim getdiyim yoldur,
Bu yolun üzü Allaha.

## ÖMRÜMÜN GÖZƏL İNSANLARI

ürəyim səksəkədə,
ömrüm təhlükədə...
dünyadan keçirəm indi...

... gecədən xeyli keçib,
küçənin ortasında təkəm,
kövrəlmişəm...

bu şəhərdəki
insanlar düşür yadıma...

bu şəhərdə
üç-beş insan var ki,
onlar yadıma düşdükcə
təpər gəlir ürəyimə.

## ÜMİD YERİM

Yer üzünü duman alıb,
Dövranın daşı çoxalıb,
Ən doğmalar da yad olub,
Ümid yerim təkcə sənsən.

Ögey-ögey baxır ömür,
Tale susub, salam vermir.
Sən görəni kimsə görmür,
Ümid yerim təkcə sənsən.

Şükür, sən nur çiçəyisən,
İlhamımı dindirirsən,
Məni ki belə sevirsən,
Ümid yerim təkcə sənsən.

Biz əl-ələ kainatıq,
Hər nəhsə, əyriyə yadıq,
Bir-birimizdən doymadıq,
Ümid yerim təkcə sənsən.

Sən mənə qüdrət verirsən,
Məlakələrdən birisən,
Sənə qurbanam, bilirsən...
Ümid yerim təkcə sənsən!

## SƏRHƏD

...alinin ən alisi
yaradanda insanı,
insanın sirri oldu
sonsuz, ulduzlar sanı.

hər kəs özü qəlbinin
ümmanından xəbərsiz,
hər qəlbdə tellər var ki,
ilahidən, bənzərsiz.

ləngər vuranda dövran
üzə çıxır batili -
bir yanda nur mələyi,
bir yanda nur qatili.

insanı öyrənməyin
keçilməz bir həddi var,
Qəşəmoğlu, keçənin
dərd içində dərdi var.

## GƏL, DÖVRANIN ŞƏKLİN ÇƏKƏK

gəl, dövranın şəklin çəkək...
bu dövran neçə rənglidi?
bu rənglərin hansı qəmli,
hansı gülər,
hansı çılğın, eşq əhlidi?

gəl, dövranın şəklin çəkək
xeyirlə şər davasında,
bu davadan səpələnən
çalarların qovğasında...

dövran nədi? insanların
əməlindən doğan işıq,
işıq var haqqa sevdalı,
işıq var nəhsə bulaşıq...

zülmətlə nur savaşında
dövran bir döyüş meydanı,
dövranın hər bir anında
damla-damla şəhid qanı...

gəl, dövranın şəklin çəkək...

## HƏYAT

nədən axı, nədən,
qəfil ölüm
aparır insanı birdən,
of demədən?

soruşdum özümdən,
kədərləndim...

...qəmli-qəmli,
heç özüm də bilmədən
əl atıb qırdım
bir çinar yarpağını,
sıxdım əlimdə...

birdən, səs gəldi yarpaqdan,
ürək göynədən:
- nədən axı, nədən
qırdın məni,
of demədən?

## DOĞMA ELLƏR

göy üzü pərdə-pərdə
hər tül pərdə sirr dolu...
hər pərdənin o üzü
yeni aləmin yolu...

aləm aləm içində,
hər aləmin aləmi
özünün yetirdiyi
bir qızılgül biçimdə...

...səndəmi darıxırsan, doğma adam?
sən dəmi kövrəlirsən tez-tez?...
bəlkə,
yad aləmdəyik biz...

...çiskin bir havada,
dərin bir dərənin dibində,
bulağın başında
suya təşnəyəm...

elə tənhayam ki...
sən dəmi tənhasan, doğma adam?

...ey tarzən, əlində tarın
tellərinəmi kökləyirsən telləri?
bəs qəlbindəki aləmin
qızılgülləri?

köklə o telləri, köklə, çal,
bəlkə, bitə tənhalıq...
bəlkə, kimsə deyə mənə
hardadı qəlbimin
doğma elləri?...